AQRAR TƏDQİQATLAR MƏRKƏZİ

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Kənd Təsərrüfatı və Ərzaq Məhsulları üzrə Dünya Bazarı Konyukturasına dair Qısa İcmal

Oktyabr 2022

# M ü n d ə r i c a t


FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı ..... 2

Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal ..... 3

Buğdanın Rusiya Federasiyasında qiyməti ..... 6

Arpanın dünya bazarı qiymətinə dair qısa icmal ..... 7

Düyünün dünya bazarı qiymətinə dair qısa icmal ..... 8

Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal ..... 9

Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal ..... 10

Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal ..... 12

Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal ..... 13

Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal ..... 14

Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal ..... 15

Çayın dünya bazarı qiymətinə dair qısa icmal ..... 16

Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal ..... 17

Soyanın dünya bazarı qiymətinə dair qısa icmal ..... 18

Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal ..... 19

Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ..... 20

Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal ..... 21

Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal ..... 22

Südün dünya bazarı qiymətinə dair qısa icmal ..... 23

Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal ..... 25

# FAO-nun qlobal ərzaq qiymətləri indeksinə dair hesabatı

**(FAO-nun 4 noyabr 2022-ci il tarixli açıqlaması)**

***FAO-nun Ərzaq Qiymətləri İndeksində 2022-ci ilin oktyabr ayında əvvəlki aya nisbətən cüzi azalma olmuşdur.***

- **Qlobal Ərzaq Qiyməti İndeksi** 2022-ci ilin oktyabr ayında orta hesabla 135.9 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.06% (0.08 bənd) az, ötən ilin oktyabr ayı ilə müqayisədə isə 2.0% (2.7 bənd) **çoxdur**.
- **Ət Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 118.4 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.4% (1.6 bənd) az, ötən ilin oktyabr ayı ilə müqayisədə isə 5.8% (6.4 bənd) **çoxdur.**
- **Süd Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 140.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.7% (2.5 bənd) az, ötən ilin oktyabr ayı ilə müqayisədə isə 15.4% (18.7 bənd) **çoxdur**.
- **Taxıl Qiyməti İndeksi** oktyabr ayında orta hesabla 152.3 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 3.0% (4.4 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 11.1% (15.2 bənd) **çoxdur**.
- **Bitki Yağlarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 150.1 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 1.6% (2.4 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 18.8% (34.7.0 bənd) **azdır**.
- **Şəkər Məhsullarının Qiymət İndeksi** oktyabr ayında orta hesabla 109.0 bənd təşkil edib ki, bu da əvvəlki ayla müqayisədə 0.6% (0.7 bənd), ötən ilin oktyabr ayı ilə müqayisədə isə 8.5% (10.1 bənd) **azdır.**

**FAO-nun ərzaq qiymətləri indeksi, məhsullar üzrə, aylıq (2014-2016-cı illər 100 götürülüb)**




**FAO-nun ərzaq qiymətləri indeksi, illik (2014-2016-cı illər 100 götürülüb)**




**Mənbə:** http://www.fao.org/worldfoodsituation/foodpricesindex/en/

# Buğda üzrə dünya bazarı konyukturasına dair qısa icmal

***(ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin 9 noyabr 2022-ci il tarixli hesabatı əsasında hazırlanıb)***

- 2022/2023-cü məhsul ili üzrə qlobal buğda istehsalının 782.7 milyon ton olacağı proqnozlaşdırılır.

**Dünya üzrə buğda bazarının tələb-təklif balansı, milyon ton**

| | | 2020/2021 | 2021/2022 | 2022/2023 |
|---|---|---|---|---|
| **TƏKLİF** | İlin əvvəlinə qalıq | 298 | 291 | 276 |
| | İstehsal | 775 | 779 | 783 |
| | **Cəmi təklif** | 1073 | 1070 | 1059 |
| **TİCARƏT** | İdxal / İxrac | 203 | 203 | 209 |
| **TƏLƏB** | Ərzaq və toxum | 624 | 633 | 635 |
| | Yem | 158 | 161 | 156 |
| | Cəmi istifadə | 782 | 794 | 791 |
| **İLİN SONUNA QALIQ** | | 291 | 276 | 268 |
| ***DÜNYA ÜZRƏ EHTİYATLARIN İSTEHLAKA NİSBƏTİ*** | | **37%** | **35%** | **34%** |

**Mənbə:** https://www.uswheat.org/market-information/supply-and-demand/

- Bununla belə, məcmu təklifin həcm göstəricisinin 2021/2022-ci məhsul ili ilə müqayisədə 11 milyon ton azalaraq 1058 milyon ton olacağı proqnozlaşdırılır. Bunun başlıca səbəbi ötən mövsümə nəzərən cari mövsümdə ilin əvvəlinə olan qalıq həcminin 5.2% azalaraq 276 milyon tona düşməsidir.
- Qlobal buğda ehtiyatları həcminin 2021/2022-ci məhsul ili ilə də müqayisədə 2022/2023-cü məhsul ilində 2.9% azalacağı və 268 milyon tona düşəcəyi gözlənilir. Nəticədə dünya üzrə ehtiyatların istehlaka nisbəti göstəricisi 34% səviyyəsində olacaq.
- Ötən mövsümə nəzərən cari mövsümdə əsas buğda ixracatçısı olan ölkələrdə ilin əvvəlinə olan qalıq həcminin sabit olaraq 59 milyon ton, istehsal həcminin isə 2021/2022-ci məhsul ili ilə müqayisədə 6 milyon ton çox (390 milyon ton) olacağı gözlənilir. Bununla da əsas ixracatçı ölkələr üzrə ümumi təklif səviyyəsi 6 milyon ton çox (449 milyon ton) olacaq.

- Dünya buğda ticarətinin 2022/2023-cü məhsul ilində əvvəlki məhsul ili ilə müqayisədə 6 milyon ton artaraq 209 milyon ton olacağı proqnozlaşdırılır.
- Çində ilin əvvəlinə olan qalıq həcminin 2021/2022-ci məhsul ili ilə müqayisədə 2 milyon ton azalaraq 142 milyon ton olacağı gözlənilir.
- Qara dəniz regionu ölkələri qrupu üzrə əvvəlki məhsul ilinə nəzərən 2022/2023-cü məhsul ilində istehsal həcminin 4.33% artaraq 139.8 milyon ton, ixracın isə 2.74% artaraq 63.7 milyon ton olacağı proqnozlaşdırılır.

**Qara dəniz ölkələri qrupu üzrə icmal**




**Qara dəniz ölkələri qrupu üzrə ixrac**




**Mənbə:** [www.uswheat.org](www.uswheat.org)

**Bu qrupda əsas istehsalçılar Rusiya, Ukrayna və Qazaxıstandır.**

➢ Dünya birjalarında 2022-ci ilin avqust ayından etibarən buğdanın qiymətində başlayan artım trendi oktyabr ayında da davam etmişdir. Oktyabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 2.2% artaraq 352 ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international*

# Rusiya buğdasının ixrac qiyməti

➢ Rusiya buğdasının ixrac qiyməti son üç ayın azalma trendindən sonra oktyabr ayında yenidən artmışdır. Oktyabr ayında buğdanın qiyməti əvvəlki aya nisbətən 2% artaraq 326 ABŞ dolları/ton təşkil etmişdir.







**Mənbə:** *https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/tool/international*

# Arpanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında arpanın 1 tonunun qiyməti əvvəlki aya nisbətən Avropa bazarında 1.5% artaraq 311 ABŞ dolları, Qara dəniz bazarında isə 3.4% artaraq 285 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** [https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home](https://fpma.fao.org/giews/fpmat4/#/dashboard/home)

## Düyünün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Oktyabr ayında düyünün 1 tonunun dünya bazarı qiyməti əvvəlki aya nisbətən 2.8% azalaraq 412 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qarğıdalının dünya bazarı qiymətinə dair qısa icmal

➢ Qarğıdalının dünya bazarı qiymətində 2022-ci ilin sentyabr ayından başlayan artım oktyabr ayında da davam etmişdir. Bu ayda qarğıdalının qiyməti əvvəlki aya nisbətən 10% artaraq 344 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Pambıq üzrə dünya bazarı konyukturasına dair qısa icmal

➢ **Dünya üzrə pambıq balansına əsasən, 2022/23-cü məhsul ilində pambıq istehsalının 2021/22-ci məhsul ili ilə müqayisədə 0.4% artaraq 25.3 milyon ton olacağı proqnozlaşdırılır.**

**Cədvəl 1. Dünya üzrə pambıq balansı (*Çin də daxil olmaqla*), milyon ton**

| | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 Oktyabr | 2022/2023 Noyabr |
|---|---|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 18.0 | 18.0 | 21.4 | 18.9 | 18.6 | 18.6 |
| **İstehsal** | 25.8 | 26.2 | 24.3 | 25.2 | 25.7 | 25.3 |
| **Təklif** | 43.8 | 44.1 | 45.7 | 44.1 | 44.3 | 44.0 |
| **Fabrik istehlakı** | 26.1 | 22.7 | 26.8 | 25.6 | 25.2 | 25.0 |
| ***İlin sonuna qalıq*** | 18.0 | 21.4 | 18.9 | 18.6 | 19.1 | 19.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *68.9%* | *94.5%* | *70.5%* | *73.0%* | *76.0%* | *75.9%* |

**Cədvəl 2. Çinin pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Noyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 7.8 | 7.9 | 8.2 | 8.1 |
| **İstehsal** | 6.0 | 6.4 | 5.8 | 6.1 |
| **İdxal** | 1.6 | 2.8 | 1.7 | 1.9 |
| **Təklif** | 15.3 | 17.2 | 15.8 | 16.1 |
| **Fabrik istehlakı** | 7.4 | 8.9 | 7.6 | 7.9 |
| ***İlin sonuna qalıq*** | 7.9 | 8.2 | 8.1 | 8.1 |
| ***İstehlak*** | 7.4 | 8.9 | 7.6 | 8.0 |
| ***Qalıq/İstehlak nisbəti*** | *106.4%* | *92.2%* | *106.2%* | *101.8%* |

**Cədvəl 3. Çin istisna olmaqla dünya pambıq balansı, milyon ton**

| | 2019/20 | 2020/21 | 2021/22 | 2022/23 Noyabr |
|---|---|---|---|---|
| **İlin əvvəlinə qalıq** | 10.2 | 13.5 | 10.7 | 10.5 |
| **İstehsal** | 20.2 | 17.8 | 19.4 | 19.3 |
| **Təklif** | 30.4 | 31.3 | 30.1 | 29.8 |
| **Fabrik istehlakı** | 15.3 | 17.9 | 17.9 | 17.1 |
| **Çinə ixrac** | 1.6 | 2.8 | 1.7 | 1.9 |
| ***İstehlak*** | 16.8 | 20.7 | 19.6 | 18.9 |
| ***İlin sonuna qalıq*** | 13.5 | 10.7 | 10.5 | 10.9 |
| ***Qalıq/İstehlak nisbəti*** | *80.4%* | *51.5%* | *53.6%* | *57.5%* |

**Mənbə**: *https://www.cottoninc.com/market-data/monthly-economic-newsletter/*

➢ **Pambığın dünya bazar qiymətində 2022-ci ilin iyun ayından başlayan azalma tendensiyası oktyabr ayında da davam etmişdir. Oktyabr ayında pambığın 1 kiloqramının qiyməti əvvəlki aya nisbətən 15.1% azalaraq 2.2 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** [https://www.worldbank.org/en/research/commodity-markets#1](https://www.worldbank.org/en/research/commodity-markets#1)

## Xam ipəyin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında dünya bazarında xam ipəyin qiyməti əvvəlki aya nisbətən 5.7% azalaraq 60.8 min ABŞ dolları/ton səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** http://www.sunsirs.com/uk/sdetail-month--.html

# Quru baramanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında dünya bazarında quru baramanın qiyməti əvvəlki aya nisbətən 1.9% azalaraq tona 20.3 min ABŞ dolları olmuşdur.**







**Mənbə:** *http://www.sunsirs.com/uk/sdetail-month--.html*

## Günəbaxan yağının Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin mart ayında kəskin artan günəbaxan yağının qiyməti növbəti aylarda ardıcıl olaraq azalsa da, oktyabr ayında yenidən artmışdır. Əvvəlki aya nisbətən 3.6% artan qiymət 1353 ABŞ dollarına qalxmışdır.**







**Mənbə:** https://www.fas.usda.gov/data/oilseeds-world-markets-and-trade

# Zeytun yağının dünya bazarı qiymətinə dair qısa icmal

➢ 2022-ci ilin oktyabr ayında zeytun yağının 1 tonunun qiyməti əvvəlki aya nisbətən İtaliya bazarında 4.8%, İspaniya bazarında 10.6%, Yunanıstan bazarında isə 10.1% artmaqla müvafiq olaraq 5175, 4319 və 3638 ABŞ dolları təşkil etmişdir.







**Mənbə:** *https://www.internationaloliveoil.org/what-we-do/economic-affairs-promotion-unit/#prices*

# Çayın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin sentyabr ayında çayın qiymətində müşahidə edilən azalma oktyabr ayında da davam etmişdir. Oktyabr ayında çayın 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 5.7% azalaraq 3.1 ABŞ dolları səviyyəsinə düşmüşdür.**







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

# Şəkərin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Şəkərin dünya bazarı qiyməti 2022-ci ilin oktyabr ayında da dəyişməyərək əvvəlki iki ayın 0.39 ABŞ dolları/kq səviyyəsindəki sabitliyini qorumuşdur.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

## Soyanın dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Soya qiymətlərində 2022-ci ilin ortalarından başlayan azalma oktyabr ayında da davam etmişdir. Qiymət əvvəlki aya nisbətən 5.8% azalaraq 626 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets#1*

# Mal ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ Son 6 ayda mal ətinin qiymətində müşahidə olunan azalma trendi oktyabr ayında da davam etmişdir. Oktyabr ayında mal ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nisbətən 3.4% azalaraq 5.46 ABŞ dolları səviyyəsinə düşmüşdür.







**Mənbə:** https://www.worldbank.org/en/research/commodity-markets#1

## Qoyun ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **Qoyun ətinin qiymətində əvvəlki 3 ayda müşahidə olunan azalma trendi oktyabr ayında da davam etmişdir. Avropa bazarında bu ətin 1 kiloqramının qiyməti ötən aya nisbətən 1.2% azalaraq 6.9 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə:** https://agridata.ec.europa.eu/extensions/DataPortal/prices.html

# Donuz ətinin Avropa bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında donuz ətinin 1 kiloqramının Avropa bazarı qiyməti əvvəlki aya nisbətən 4.5% azalaraq 2 ABŞ dolları olmuşdur.**







**Mənbə:** [https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/overviews/market-observatories/meat/pigmeat-statistics_en#trade](https://ec.europa.eu/info/food-farming-fisheries/farming/facts-and-figures/markets/overviews/market-observatories/meat/pigmeat-statistics_en#trade)

# Quş ətinin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında quş ətinin 1 kiloqramının dünya bazarı qiyməti əvvəlki aya nəzərən sabit qalıb, 3.31 ABŞ dolları səviyyəsində qərarlaşmışdır.**







**Mənbə**: https://www.worldbank.org/en/research/commodity-markets#1

## Südün dünya bazarı qiymətinə dair qısa icmal

➢ **2022-ci ilin oktyabr ayında əvvəlki ayla müqayisədə süd xammalının 1 tonunun fermadan satış qiyməti ABŞ-da 0.6%, Avropa İttifaqında 2% artmaqla müvafiq olaraq 539 və 540 ABŞ dolları, Yeni Zelandiyada isə 5.1% azalmaqla 418 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

➢ **Quru südün 1 tonunun qiyməti 2022-ci ilin oktyabr ayında əvvəlki ayla müqayisədə ABŞ-da 3.7% artaraq 5393 ABŞ dolları, Avropa İttifaqında isə 1.9% azalaraq 4800 ABŞ dolları olmuşdur.**







**Mənbə**: https://www.clal.it/en/index.php

## Gübrənin dünya bazarı qiymətinə dair qısa icmal

➢ **Oktyabr ayında kalium gübrəsinin qiyməti əvvəlki aya nisbətən sabit qalmış, fosfor və azot gübrələrinin qiyməti isə müvafiq olaraq 4.7% və 6.2% azalmışdır.**







**Mənbə:** *https://www.worldbank.org/en/research/commodity-markets*

**Əlaqə:**

(+994 12) 599-08-88

www.atm.gov.az

info@atm.gov.az

Nizami küçəsi, 92
AZ 1010 Bakı, Azərbaycan

AQRAR TƏDQİQATLAR MƏRKƏZİ